**Lənkəran Dövlət Unversiteti**

**ƏMR**

**№ 2/219**

*Lənkəran şəhəri* *“_12___” _oktyabr 2016-cı il*

**“Dövlət Müstəqilliyi Günü”nün 25-ci ildönümünün qeyd edilməsi haqqında**

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq, öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 25 il keçir. Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, yaradıcı potensialına, vətənpərvərliyinə və qurub-yaratmaq əzminə arxalanaraq, 25 il ərzində suveren dövlət çərçivəsində misilsiz inkişaf yolu keçmişdir.

Bu məqsədlə qarşıda gələn “Dövlət Müstəqilliyi Günü”nün 25-ci ildönümünün qeyd edilməsi olduqca əhəmiyyətlidir. Bu gün Universitetin hər bir əməkdaşı və tələbəsi üçün milli iftixar günü, şanlı tarixdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında”11 oktyabr 2016-cı il tarixli sərəncamını əsas götürərək “Dövlət Müstəqilliyi Günü”nün 25-ci ildönümünün qeyd edilməsi ilə əlaqədar

**əmr edirəm:**

1. “Dövlət Müstəqilliyi Günü”nün 25-ci il dönümü münasibətilə 18 oktyabr 2016-cı il tarixində Universitetdə “Dövlət Müstəqilliyi Günü”nə həsr olunmuşkonfrans keçirilsin.
2. 18 oktyabr 2016-cı il tarixində tədris aparılan bütün akademik qruplarda ilk dərs saatı “Dövlət Müstəqilliyi Günü”nə həsr edilsin.
3. İnformasiya – Kommunikasiya və Kitabxana Mərkəzinin və Mətbuat xidmətinin rəhbərlərinə tapşırılsın ki, “Dövlət Müstəqilliyi Günü”nə həsr edilən tədbirlərin mətbuatda və universitetin saytında işıqlandırılması təmin edilsin.
4. Əmr Universitetin bütün struktur bölmələrinə elan edilsin.
5. Əmrin icrasına nəzarət rektorun müşaviri dos. Mikayıl Məhərrəmova tapşırılsın.

*Əsas:Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 11 oktyabr 2016-cı il tarixli sərəncamı;*

*Universitetin EBƏŞ-nin müdiri Z.İ.Məmmədovun 01.10.2016-cı il tarixli təqdimatı.*

**Rektor vəzifəsini icra edən:** **prof. Natiq İbrahimov**